Sözün bitdiyi yer

Tarixin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının törədilməsindən 30 il ötür. Azərbaycanın Xocalı şəhəri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları tərəfindən yerlə-yeksan edilib. Ermənı şovinistlərinin qəddarlıqla həyata keçirdiyi bu amansız və qanlı cinayətdə Xocalı şəhərinin sakinləri son anadək özlərini qəhrəman kimi aparıb, axır nəfəslərinədək vuruşaraq düşmən qarşısında əyilməyiblər. Ümummilli liderimiz Heydər Əliyev bu faciəni bəşəriyyətə qarşı yönəlmiş ən qəddar soyqırımı kimi dəyərləndirərək deyirdi: "Xocalı faciəsi bir tərəfdən hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır - vəhşiliyin görünməmiş bir təzahürüdür".

Təəssüflər olsun ki, həmin dövrdə Azərbaycana rəhbərlik edənlər Xocalı soyqırımına biganə münasibət göstərmiş, xalqımıza qarşı törədilən cinayəti ört-basdır etməyə çalışmışlar. Yalnız həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışan görkəmli dövlət xadimi Heydər Əliyev ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat vermiş, faciəni törədənlərin və səbəbkarların məsuliyyətə cəlb olunmasını tələb etmişdir. Ulu öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilmişdir. Bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülmüşdür. 1994-cü ilin fevralında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Xocalıda baş vermiş hadisələri geniş təhlil edərək "Xocalı Soyqırımı Günü haqqında" Qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq dünya ictimaiyyətini erməni terrorizminə qarşı qəti tədbirlər görməyə çağırmışdır. Qəbul edilmiş qərara əsasən bəşər tarixinin qanlı səhifələrindən olan Xocalı hadisələri ilə əlaqədar hər il fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan olunmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il fevralın 25-də imzaladığı Sərəncamla hər il fevral ayının 26-sı saat 17:00-da ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Azərbaycan xalqı Xocalıda qətlə yetirilmiş yüzlərlə həmvətənimizin xatirəsini daim əziz tutur, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanları ehtiramla yad edir.

2002-ci il fevralın 25-də ümummilli lider Heydər Əliyev Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində bu amansız soyqırımına əsl qiyməti vermişdir: "Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni şovinist- millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir". Hazırda bu proses Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində artıq bir sıra beynəlxalq təşkilatlar qəbul etdiyi sənədlərdə Ermənistan işğalçı dövlət kimi göstərilmişdir. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı olaraq addımlar atılmışdır. Bu baxımdan Heydər Əliyev Fondu tərəfindən görülən işlər olduqca təqdirəlayiqdir. Belə ki, Fond bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində çox sistemli və ardıcıl fəaliyyət göstərir. Fondun dəstəyi və təşkilatçılığı ilə məktəblilər arasında keçirilən "Xocalı - uşaqların gözü ilə" rəsm müsabiqəsinin, əl işlərinin və fotoşəkillərin dünyanın aparıcı ölkərində keçirilən sərgisi dünya ictimaiyyətində XX əsrin ən böyük faciəsi haqqında daha dolğun təsəvvür yaratmışdır. Bundan əlavə, 2007-ci il fevralın 26-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə Brüsseldə təşkil olunan "Təcavüzün qurbanları" adlı foto və uşaq rəsmlərinin sərgisi də bu həqiqətlərin beynəlxalq aləmə çatdırılması işinin davamıdır. Fond soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün həmin il fevralın 19-26-da Türkiyənin İstanbul şəhərində və daha 25 vilayətində "Xocalı həftəsi" adlı tədbirlər proqramı çərçivəsində anım mərasimləri keçirilmişdir. Bundan başqa, Xocalı faciəsinin beynəlxalq aləmdə tanıdılması istiqamətində 2008-ci il fevralın 14-də Berlində keçirilmiş "Xocalı soyqırımı və 1915-ci il hadisələrindəki gerçəklər" adlı elmi konfrans da son dərəcə əhəmiyyətli olmuşdur. Heydər Əliyev Fondunun dəstəyi ilə Xocalı faciəsinin ildönümü 2010-cu ildə artıq dünyanın 100-dən çox nöqtəsində qeyd olunmuşdur. Soyqırımına həsr olunmuş silsilə tədbirlər Fondun hazırladığı təbliğat materialları əsasında həyata keçirilib.

Heydər Əliyev Fondunun ayrı-ayrı ölkələrdə geniş miqyasda təşkil etdiyi və faciənin həqiqətlərinin yayılmasına yönəldilmiş anım tədbirləri Rusiya Federasiyasındakı nümayəndəlik tərəfindən İslam Konfransı Təşkilatının (hazırda İslam Əməkdaşlıq Təşkilatı adlanır) Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumu çərçivəsində uğurla davam edir. İslam Əməkdaşlıq Təşkilatı Ermənistanı təcavüzkar, Xocalı faciəsini isə soyqırımı kimi tanıyan ilk beynəlxalq təşkilatdır. 2008-ci il mayın 8-də, Şuşa şəhərinin işğalının ildönümündə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası təsis edilmiş, fəaliyyətinə isə 2009-cu ilin fevralından start verilmişdir. 60-dan çox ölkədə yüzlərlə könüllünün iştirakı ilə uğurla davam etdirilən "Xocalıya ədalət!" beynəlxalq informasiya və təşviqat kampaniyası da bu işə öz töhfəsini vermək-dədir. Bu kampaniyanın məqsədi beynəlxalq ictimaiyyəti Xocalı soyqırımı ilə əlaqədar məlumatlandırmaq, qətliama beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsinə və bu qanlı qırğının qurbanlarının xatirəsinin anılmasına nail olmaqdır. Prezident İlham Əliyevin 2014-cü il 13 fevral tarixli "Xocalıya ədalət!" kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən, bu tədbirlərin beynəlxalq səviyyədə daha da genişləndirilməsi qərara alınıb. Bu istiqamətdə aparılan səmərəli işin nəticəsidir ki, hər dəfə faciənin ildönümündə dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, erməni vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər, materiallar nümayiş olunur. Dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap edilir, televiziya və radiolarda verilişlər hazırlanır. Hər il Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimləri keçirilib. Bu aksiyaların iştirakçılarına Fond tərəfindən hazırlanmış, Qarabağın və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixindən bəhs edən materiallar, bukletlər, fotoalbomlar və kitablar paylanılıb. Aksiyalar çərçivəsində ermənilərin vəhşiliklərindən bəhs edən sənədli filmlər nümayiş etdirilib, rəsm sərgiləri təşkil olunub. Qardaş Türkiyədə, ABŞ-da, Almaniyada, Avstriyada, Belçikada, Gürcüstanda, Hollandiyada və digər ölkələrdə keçirilən mitinqlər, anım tədbirləri, konfranslar, sərgilər, müsabiqələr ictimaiyyət arasında böyük əks-səda doğurub.

Bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının ildönümü ilə əlaqədar 2019-cu il fevralın 26-da Bakıda ümumxalq yürüşü keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yürüşdə iştirak ediblər. Paytaxtın Azadlıq meydanından Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başlayan və on minlərlə insanın iştirak etdiyi ümumxalq yürüşünün məqsədi Xocalı faciesi qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır. Bütövlükdə bu ümumxalq yürüşü Azərbaycanın Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin növbəti mərhələsidir. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin sonunda bütün sivil bəşəriyyətin gözü qarşısında törədilmiş bu vəhşiliyə laqeydlik, yüzlərlə dinc insanın ölümündə təqsirkar olanların cəzalandırılmaması belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər. Bu yürüş həm də Azərbaycan xalqının sıx birliyini, onun öz şəhidlərinin xatirəsinə ehtiramını, işğal altındakı torpaqların azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirdi.

Nəhayət, Qarabağda Ermənistanın növbəti təxribatına cavab olaraq əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusu 44 günlük Zəfər yürüşü ilə ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Silahlı Qüvvələrimiz hər bir kənd, qəsəbə, şəhər, yüksəkliyin düşməndən təmizlənməsi uğrunda rəşadətlə mübarizə apardı, böyük tarixi nailiyyətlərə imza atdı. Vətən müharibəsi Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, iradəsi, qəhrəman Ordumuzun cəsurluğu, qəhrəmanlığı nəticəsində zəfərlə başa çatdı. Düşmən uzun müddətdən bəri törətdiyi cinayətlərin və verdiyi təcavüzkar bəyanatların, Xocalı soyqırımının cəzasını layiqincə aldı. Bu tarixi Qələbə əbədiyaşar şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazanıldı və Azərbaycanın müstəqillik tarixinə qızıl hərflərlə yazıldı.

Mustafa KAMAL,
"Respublika".

Tarixin unudulmayan səhifəsi

Azərbaycan tarixinin elə məqamları var ki, onu xatırladıqca qürur duyursan. Elə tarixlər var ki, qan yaddaşımıza yazıb nəsillərdən-nəsillərə ötürür, yaşadırıq. Azadlığa, müstəqilliyə can atan xalqımız XX əsrdə bu yolu uğurla keçdi. Əsrin əvvəlində qazandığı müstəqilliyi, əsrin sonunda daha əbədi və daimi etdi. Azadlıq verilmir, alınır. Azərbaycan xalqı da azadlığına asanlıqla qovuşmadı, minlərlə şəhid verdi, lakin yolundan dönmədi. Kövrək addımlarını atan müstəqil dövlətimizin qorunması, möhkəmləndirilməsi yolunda ağlasığmaz faciələr yaşandı. Qanlı Yanvar, Xocalı, Daşaltı əməliyyatı və tarixə yazılan neçə-neçə ölüm-dirim mübarizəsinin qurbanları acımızı artırsa da, döyüş əzmini qırmadı. Sarsılmadıq, sınmadıq, ölümdən qorxmadıq, torpaq uğrunda ölməyi şərəf bildik. Bu döyüşlərin, çarpışmaların içində doğulub böyüyən gənclər ataların yarımçıq qalmış döyüş yolunu Zəfərlə başa çatdırdı. Azərbaycan Ordusu dünyanın ən güclü ordularından biri kimi dünya hərb tarixinə örnək olan döyüş taktikası ilə düşmənə layiqli cavab verdi, təqviminizi yenilədi. 1990-cı il 20 Yanvar, 1992-ci il 26 fevral tarixlərinin yanına daha bir tarix yazdı: 2020-ci il 10 noyabr... Son ikiəsrlik tariximizin davamlı mübarizəsinin uğurlu sonu...

Tarix yaşanmışlardır, onu nə təzələmək, nə silib atmaq olur. Bizə sadəcə xatırlamaq, ibrət dərsi götürmək, səhvlərimizdən nəticə çıxarmaq qalır. Bu gün tariximizin qara səhifələrini xatırlamaqda da bir məqsəd var: onu təkrar yaşamamaq!..

1992-ci il 26 fevral. Xocalı soyqırımı. Yaddaşımız bizi 30 il əvvələ aparır. Həmin ərəfədə Azərbaycanın Ermənistanla həmsərhəd olan Qazax rayonunun Bağanis Ayrım kəndinin, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilmişdi. 1992-ci il fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalmışdı. Xocalı faciəsi addım-addım yaxınlaşırdı...

Xocalı 1991-ci ilin oktyabrında blokadaya salınmışdı. Xankəndidən 10 kilometr cənub-şərqə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında strateji məntəqədə yerləşən, Dağlıq Qarabağın yeganə hava limanının yerləşdiyi Xocalı fevralın ikinci yarısından başlayaraq Ermənistan hərbi birləşmələri tərəfindən tam mühasirəyə götürüldü. Dinc sakinlərin dəstə halında və ya təklikdə mühasirədən çıxmaq üçün göstərdiyi bütün cəhdlərin qarşısı alınırdı.

Xocalı həm də müdafiə olunurdu. 1992-ci il fevralın 25-də Əlif Hacıyev və onun dəstəsi səhər saat 5-ə qədər düşmənə ciddi müqavimət göstərdi. Qüvvələr qeyri-bərabər olsa da dəstə geri çəkilmir, döyüşürdü. İlk növbədə dinc əhalini təhlükəsiz yerə çatdırmağa cəhd göstərdilər. Adamların bir hissəsini Ağdamın Selli kəndinə çatdırmaq mümkün oldu, lakin hələ nicat gözləyən çox adam var idi. Əlif Hacıyev bu döyüşlərdə vurulmuşdu. Həmin günlərdə Şöhrət Həsənov, Ələsgər Novruzov, Tofiq Hüseynov, İnqilab İsmayılov, Aqil Quliyev, Füzuli Rüstəmov və başqaları qəhrəmanlıqla döyüşmüş, Xocalını xilas etmək üçün son damla qanlarınadək vuruşmuşdular.

Xocalı o dövrdəki ölkə rəhbərliyi tərəfindən tamamilə müdafiəsiz buraxılmışdı. Ümummilli lider Heydər Əliyev bununla bağlı demişdir: "O zamankı iqtidarın Azərbaycanın milli müstəqilliyinə və xalqımıza qarşı xəyanətkar mövqeyi, öz konstitusion vəzifə borcuna cinayətkar laqeydliyi, ardı-arası kəsilməyən siyasi hakimiyyət oyunları, respublikada baş alıb gedən anarxiya və başıpozuqluq, ayrı-ayrı siyasətbazların məkrli şəxsi ambisiyaları bu tarixi faciənin törədilməsinə birbaşa şərait yaratmışdır. Uzun müddət dörd tərəfdən düşmən əhatəsində taleyin ümidinə buraxılmış vətəndaşlarımızın imdad dolu harayı qulaqardına vurulmuş, Xocalının xilas olunması üçün real imkanların mövcudluğuna baxmayaraq, günahsız əhali məqsədyönlü şəkildə bu milli qırğına sürüklənmişdir. Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən məhkum olunmalıdır".

Xocalı soyqırımı azərbaycanlılara qarşı törədilmiş bəşəri cinayətdir və o, dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidise, Babi Yar, Ruanda və Serebrenitsa kimi soyqırımıları ilə bir sırada durur.

Xocalı soyqırımı Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü zamanı doğma torpağının müdafiəsinə qalxmış xalqımızı sarsıtmaq, onun mübarizə əzmini qırmaq, Dağlıq Qarabağın azərbaycanlı əhalisini məhv etmək niyyətilə törədilmiş silsilə kütləvi qırğın aktlarından biridir. Bunu Xocalı faciəsindən təqribən ay yarım sonra aprelin 8-də Kəlbəcər rayonunun Ağdaban kəndinin işğalı zamanı törədilən vandalizm aktı da sübut edir. Bu qətliamların davamı kimi 1992-ci il avqustun 28-də Goranboy rayonunun Ballıqaya kəndində dinc əhali amansızlıqla qətlə yetirilib.

Xocalı soyqırımından 30 il ötür. Bu illərdə atəşkəs elan edilsə də düşmən heç bir zaman atəşkəsin şərtlərinə əməl etmədi, təmas xəttinə yaxın yaşayış məntəqələrimiz mütəmadi şəkildə atəşə tutuldu, evlər dağıdıldı, insanlar öldürüldü. Ermənilər öz qəddarlıqlarını Vətən müharibəsi dövründə də nümayiş etdirdilər. Döyüş zonasından uzaqda yerləşən şəhərlərə atılan raketlər yenə də dinc əhaliyə hədəflənmişdi. Gəncədə, Bərdədə, Tərtərdə və başqa şəhər və rayonlarda Ermənistanın hərbi-siyasi rəhbərliyinin dinc əhalini hədəf seçməsi köhnə ssenarinin davamı idi. Onun Gəncədə yaratdığı acı mənzərə eynilə Xocalı soyqırımını xatırladırdı hər kəsə. Valideynlərini itirib tək qalmış bir qızcığazın məlul baxışlarında Xocalı qətliamı günü yetim qalmış uşaqların kədərinin, faciəsinin əksini gördük, yaralar qövr etdi. Bu yaralara məlhəm qoyan, içimizdəki acını soyudansa Azərbaycan əsgəri, zabiti oldu. Düşmən özü də hiss etmədən bu torpağın hər bir övladını qəhrəmana çevirmişdi və nəhayət illər boyu intiqam hissi ilə yaşayan igid oğullar öz torpağını azad edib faciə qurbanlarının qisasını aldı.

1993-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə fevralın 26-sı tarixi Xocalı soyqırımı günü kimi qəbul olundu. Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli Qərarı ilə hər il fevral ayının 26-sı saat 17:00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatrəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan olunub.

2014-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev Xocalı soyqırımı haqqında qeyd etmişdir ki: "Xocalı faciəsi iki yüz ilə yaxın bir müddət ərzində erməni millətçilərinin və onların havadarlarının xalqımıza qarşı apardığı etnik təmizləmə və qoyqırımı siyasətinin davamı və qanlı səhifəsi idi".

2017-ci ildə Xocalı soyqırımının 25-ci ildönümü Bakıda növbəti ümumxalq yürüşü ilə yad edildi. Yürüşdə "Dünya Xocalı soyqırımını tanımalıdır", "Xocalıya ədalət!", "Xocalını unutmayın!", "Rədd olsun erməni faşizmi!", "Xocalı-XX əsrin soyqırımı", "Cinayətkarlar cəzasız qalmayacaqlar!" və s. çağırış və şüarlar nümayiş etdirildi. 2021-ci ilin fevralında isə biz Xocalı soyqırımı gününü qalib bir xalq kimi qeyd etdik. Xocalı soyqırımı unudulmayacaq, həm də ona görə ki, bizə mübarizə aparmağı, qalib gəlməyi öyrətdi...

Zümrüd QURBANQIZI,
"Respublika".

Silsilə tədbirlər keçiriləcək

Xocalı soyqırımının 30-cu ildönümü ərəfəsində Avropa Azərbaycanlıları Konqresinin sədri Sahil Qasımov "Respublika" qəzetinə müsahibə verib. Soyqırımı həqiqətlərinin Avropa xalqlarına çatdırılması istiqamətində həyata keçiriləcək tədbirlərə aydınlıq gətirən diaspor rəhbəri, tarixi düşmənlərimizin dünyada apardığı məkrli siyasətə cavab verməyin yolları, o cümlədən bu sahədə Türkiyə və Azərbaycan diasporlarının birgə fəaliyyət proqramının həyata keçirilməsi ilə bağlı bir sıra suallarını cavablandırıb. Həmin müsahibəni təqdim edirik:

– Sahil müəllim, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xocalı soyqırımının otuzuncu ildönümü haqqında imzaladığı sərəncama əsasən ölkəmizdə və dünyanın müxtəlif ölkələrində çoxsaylı tədbirlərə start verilib. İlk öncə, istərdik ki, Avropa ölkələrində Xocalı soyqırımı kampaniyası çərçivəsində görülmüş işlər barədə məlumat verəsiniz.

– Xocalı soyqırımının dünyaya tanıdılması, ümumiyyətlə, Qarabağ həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspora təşkilatlarının qarşısında duran ən ümdə vəzifələrdən biridir. Təbii ki, Xocalı qətliamının bəşəri cinayət və Azərbaycan xalqına qarşı həyata keçirilmiş soyqırımı aktı kimi tanınması üçün indiyədək Avropada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları ardıcıl və koordinasiyalı tədbirlər baş tutub. İlk öncə onu qeyd etmək istəyirəm ki, "Xocalıya ədalət" kampaniyasına ilk dəfə 2009-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə start verilib. Bu proses hər il həm Azərbaycan diaspor təşkilatlarının xətti ilə, həm də digər resurslardan istifadə olunmaqla ardıcıl olaraq davam etdirilir.

"Xocalıya ədalət" kampaniyası çərçivəsində Avropa Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə hər il müxtəlif səpkili tədbirlər həyata keçirilir. Erməni vəhşiliyi və vandalizm aktı ilə bağlı uzun illərdir Avropa ölkələrinin parlamentində, siyasi partiyalarda, Holokost muzeylərində, beynəlxalq institutlarda səmərəli görüşlər təşkil edilir. Ötən il Avropa Azərbaycanlıları Konqresinin rəhbəri kimi, BMT-nin 58-ci sessiyasında çıxış edərək, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Xocalı şəhərində XX əsrin ən qəddar soyqırımı aktının həyata keçirilməsi tarixi faktlarla tədbir iştirakçılarının diqqətinə çatdırıldı. Belə bir bəşəri cinayətə hüquqi, siyasi qiymət verilməsi tələb edildi. Bununla yanaşı, hər il Avropa Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə Avropanın bir çox ölkələrinin parlament binalarının qarşısında etiraz aksiyaları, flaşmoblar, rekviem simfonik konsertlər keçirilmişdir. "Xocalıya ədalət" kampaniyası çərçivəsində Avropanın aparıcı televiziya və KİV-lərində faciə ilə bağlı dolğun və əhatəli informasiyalar yayımlanmışdır. Təbii ki, indiyədək həyata keçirilmiş tədbirlərin nəticəsində dünyanın bir çox ölkələrinin parlamentləri Xocalı faciəsini soyqırımı aktı kimi qəbul etmişdir.

Əlbəttə, qarşıdan Xocalı soyqırımının 30-cu ildönümü gəlir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı sərəncam imzalayaraq dünyanın müxtəlif ölkələrində silsilə tədbirlərin keçirilməsi ilə bağlı qarşımızda duran vəzifələrin detallarını açıqlayıb.

– Sahil müəllim, Avropa Azərbaycanlıları Konqresi bu il Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı nə kimi tədbirlər keçirməyi planlaşdırıb?

– Avropa Azərbaycanlıları Konqresi olaraq Azərbaycan Pespublikasının Prezidenti İlham Əliyevin Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı imzaladığı sərəncamından irəli gələn vəzifələrin həyata keçirilməsi üçün bir sıra silsilə tədbirlər nəzərdə tutmuşuq. Artıq Avropanın bir sıra ölkələrində Xocalı soyqırımının ildönümü və anma mərasimləri, faciənin soyqırımı kimi dünya ictimaiyyətinə çatdırılması ilə əlaqədar tədbirlər keçirilir. Əsas məqsədimiz yerli ictimaiyyətin diqqətini bu faciəyə yönləndirməklə, ermənilərin son iki əsrdə xalqımıza və torpaqlarımıza qarşı həyata keçirdikləri işğalçılıq və soyqırımı siyasətini geniş auditoriyalara çatdırmaqdır. Bununla yanaşı, yerli kanallarda Xocalı soyqırımını əks etdirən filmlərin nümayişi, rəsmi orqanlara müraciətlər də apardığımız kampaniyanın tərkib hissəsidir.

Qeyd edim ki, son illərdə tədbirlərin əksəriyyəti qapalı məkanlarda deyil, daha çox ictimaiyyətə açıq yerlərdə mitinq, yürüş formasında təşkil edilib. Bu il də belə tədbirlərin keçirilməsi proqramımızda yer alıb. Təbii ki, ermənilərin söz sahibi olduğu bir sıra ölkələrdə tədbirlərimizin keçirilməsində qarşıdurmalarla da üzləşirik. Bu baxımdan düşünürəm ki, Xocalı soyqırımını tək fevral ayında deyil, ilboyu müxtəlif tədbirlərlə gündəmdə saxlamalıyıq. Ermənilər 100 ildən çox zaman kəsiyində qondarma "erməni soyqırımı"nı ilboyu diqqətdə saxlamağa çalışırlar. Biz də bu yolda ardıcıl olaraq mübarizə aparıb, Xocalı faciəsini dünyada soyqırımı aktı kimi tanıtdırmalıyıq.

– Çox doğru dediniz ki, hər il ermənilər dünyada Türkiyəyə qarşı qondarma "erməni soyqırımı"nı gündəmə gətirirlər. Bu iftiraların qarşısının alınmasında Avropada fəaliyyət göstərən Azərbaycan-Türkiyə diasporlarının birgə koordinasiyası varmı?

– Sirr deyil ki, ermənilər "uydurma soyqırımı"n tanıdılması istiqamətində uzun illərdir iş aparırlar. 2015-ci ildə "uydurma erməni soyqırımı"nın dünya dövlətləri tərəfindən tanınması üçün erməni diaspor təşkilatları və lobbi qurumları dayanmadan iş görürlər. Biz öz növbəmizdə həmin informasiyaları təhlil edib Azərbaycan və Türkiyə diasporlarının gücünü bir araya gətirməklə əks-həmlələr etməliyik. Başqa sözlə desək, cənab Prezidentin tövsiyələrinə uyğun olaraq, müdafiədən hücum taktikasına üstünlük verməliyik. Ermənilərin bu təbliğatı yüz ildən çoxdur ki, davam edir. Ancaq bu gün Azərbaycan dövlətinin gücü, imkanları, beynəlxalq nüfuzu elə bir səviyyədədir ki, Ermənistanın istənilən təxribatının qarşısını ala bilir. Yəni indi inamla deyə bilərik ki, ümummilli lider Heydər Əliyevin qurduğu və ardıcıl həyata keçirdiyi uzaqgörən siyasətin nəticəsində, cənab İlham Əliyevin davamlı, yorulmaz fəaliyyəti sayəsində Azərbaycan az bir vaxtda sözün həqiqi mənasında çox böyük işlər görüb.

Bir fikri xüsusi vurğulamaq istəyirəm ki, Ali Baş Komandanımız İlham Əliyevin və rəşadətli Azərbaycan ordusunun 44 günlük müharibədə əldə etdiyi tarixi zəfər ermənilərin indiyədək formalaşdırdığı yalançı mifi darmadağın etdi. "Erməni mifi"nin dağılması elə "soyqırımı mifi"nin də dağılmasına gətirib çıxaracaq.

Düşünürəm ki, biz tək Azərbaycan və Türkiyə deyil, bütövlükdə dünyanın müxtəlif ölkələrində mövcud olan türkdilli xalqların diaspor təşkilatları ilə birgə fəaliyyət proqramı işləyib hazırlamaqla gücümüzü bir araya gətirməliyik. Təbii ki, bizim Avropada təşkil etdiyimiz Xocalı soyqırımı tədbirlərində Türk qardaşlarımız aktiv iştirak edirlər. Bu istiqamətdə koordinasiyamız getdikcə formalaşır. Əlbəttə, diaspor təşkilatlarımızın fəaliyyətinin koordinasiya olunması, türkdilli xalqları narahat edən məsələlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün işlək mexanizmlərin işlənilib hazırlanması çox yaxşı olardı.

– Artıq 1 il 4 aydır dünyanın müxtəlif ölkələrində yaşayan 50 milyondan çox azərbaycanlı Ermənistan üzərində qələbəmizin sevinc dolu anlarını yaşayır. Bunu həm də Xocalı qurbanlarının qisasının alındığı tarix hesab etmək olarmı?

– Mənim üçün bütün uğurların zirvəsi Vətənimizin bütövlüyünün təmin olunması və torpaqlarımızın işğaldan azad edilməsi oldu. Tam səmimi deyim, həyatda nə qədər uğurlar əldə etsək də, torpaqlarımızın işğal altında olmasına görə başımız aşağı idi. Bu baxımdan Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun torpaqlarımızı işğal altından azad etməsi, dünyanın müxtəlif ölkələrində yaşayan 50 milyondan çox azərbaycanlının sınmış qüririnu, tapdalanmış ruhunu bərpa etdi. 44 günlük Vətən müharibəsi 28 il işğal altında olan torpaqlarımızın, xüsusilə siyasi və strateji əhəmiyyət daşıyan Şuşa şəhərinin hərbi döyüşlərlə azad edilməsi ilə tarixi zəfərlə yekunlaşdı. Bu xoşbəxtliyi, bu qüruru bizə Müzəffər Ali Baş Komandan İlham Əliyev və qəhrəman Azərbaycan ordusu yaşatdı. İkinci Qarabağ müharibəsində şanlı ordumuz ermənilər üzərində əldə etdiyi qələbə ilə nisbətən Xocalı qurbanlarının qisasını da almış oldu. Amma bizim düşmən üzərində əsas qələbəmiz və faciə qurbanlarının qisasının alınması Xocalı soyqırımının dünya dövlətləri tərəfindən tam tanıdılması ilə başa çatacaq. Mən əminəm ki, biz gec-tez buna nail olacağıq.

Mən fürsətdən istifadə edib, xalqımıza bu qələbə sevincini yaşadan Prezident İlham Əliyevə, müzəffər ordumuza, cəsur əsgərlərimizə dərin minnətdarlığımı bildirirəm. Allahdan bütün şəhidlərimizə rəhmət, yaralı əsgərlərimizə şəfa diləyirəm.

Müsahibəni apardı:
Möhsüm QƏDİROĞLU,
"Respublika" qəzetinin
Ukrayna və Şərqi Avropa ölkələri üzrə
xüsusi müxbiri.